# Ramazan bayramı

İslam dünyasının ən müqəddəs iki dini bayramı vardır. Ramazan və Qurban bayramları. Ramazan ayını oruclu keçirən möminlər sonrakı ayın ilk üç gününü bayram etmiş, bu səbəblə ona Ramazan Bayramı deyilmişdir. Ramazan bayramı bir ay ərzində tutulan orucun və digər ayinlərin sevincini ifadə etdiyindən dinimizdə xüsusi fəzilətə sahibdir.

Hazırda ayların sultanı Ramazanın sonlarına yaxınlaşmışıq. Bu ayın fəziləti möminlər üçün dünyada ən böyük səadət duyğularını tərənnüm edir. Onun gəlişi kimi, gedişi də mübarəkdir. Bitməz-tükənməz mənəvi xəzinə olan bu ayı yola salıb elliklə bayram etməyə hazırlaşmağımız insanlar arasında xüsusi ovqat yaradır. Təkcə ölkəmizdə deyil, Allahı bir, peyğəmbəri bir, kitabı bir, azanı bir, qibləsi bir olan milyard yarım dünya müsəlmanları bayram əhval-ruhiyyəsindədir. Buna görə də qəlblərimizdəki iman nuru ilə çiyin-çiyinə dayanıb Uca yaradanın hüzurına yığışmışıq.

Biz Ramazan boyu günlərimizi pisliklərdən arınmağa, Uca Yaradana tövbələr edərək saflaşmağa çalışdıq. «Qurani-Kərim»in «Günahlardan təmizlənən kimsə nicat tapacaqdır» müjdəsini alaraq, Ramazanı Allahın bəndələrinə bəxş etdiyi ilahi ziyarət ayı kimi qarşılayıb yola salmalıyıq.

Ramazan bayramı insanlar arasında birliyin, qardaşlığın, bərabərliyin rəmzi, sülhün və əminamanlığın göstəricisidir. Dinimiz bizdən bir-birini sevən, səmimi duyğularla birləşən cəmiyyət olmağımızı istəyir. Allahın Elçisi bir hədisində buyurur: «Möminlər bir-birini sevməkdə, bir-birlərinə mərhəmət göstərməkdə bir vücudun əzalarına bənzəyirlər. Vücudun hər hansı əzası ağrıyarsa, digər əzalar da narahat olar, ağrını paylaşar».

Ona görə də bayram günlərində başda ata və analarımız olmaqla, böyüklərimizi, qonşularımızı, qohum-əqrabamızı, dostlarımızı ziyarət etmək, kasıbları, yetimləri, kimsəsizləri, uşaqları sevindirmək lazımdır. Dünyadan köçmüşlərimizin də qəbirlərini ziyarət edərək, «Qurani-Kərim»dən ayələr və dualar oxutmaqla ruhlarını şad etməliyik.

Bayram münasibəti ilə küsülülər mütləq barışdırılmalıdır. Çünki dinimiz üç gündən artıq küsülü qalmağı məqbul saymır. Kin, nifrət, həsəd, ədavət kimi mənfi duyğular müsəlmanlar arasında olmamalıdır.

Əziz müsəlman qardaş və bacılar, gözəl və xeyirxah davranışlarla sadəcə müəyyən günlərdə deyil, həyatımız boyu məşğul olmalıyıq. Çünki Ramazan ayında qazandığımız gözəl xislətləri bu ayın bitməsi ilə tərk edilməməli, qəlblərdən dodaqlara süzülən təbəssüm üzlərdən heç vaxt əskik olmamalıdır.

Belə duyğularla Ramazan bayramınızı təbrik edir və bu mübarək günün ölkəmiz, dövlətimiz, millətimiz və bütün İslam dünyası üçün sülhə, əmin amanlığa və xoşbəxtliyə səbəb olmasını Ulu Yaradandan arzu edirik!

***Bayramınız mübarək!***

**«Qəbələ».**

# Gözəlliyi rənglərlə ifadə edən istedadlar

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində (UADM) rəsm kursu fəaliyyət göstərir. Kurslarda rəsm bacarığı olan imkansız ailələrin və xüsusi qayğıya ehtiyacı olan uşaqların iştirak etməsi könüllüdür. Kursların təşkil edilməsində məqsəd xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiya olunmasında şəraitin yaradılmasıdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar kurslarda sağlam uşaqlarla birlikdə iştirak edirlər.

Rəsm kursunda diqqətçəkən cəhətlərdən biri də rəsm çəkmək texnikasını öyrədənin özü də uşaqlarla həmyaşıd olmasıdır. Bu da kursun uğurlu və maraqlı keçməsinə kömək edən səbəblərdən biridir. Kursa müəllimlik edən missiyanın öhdəsindən rayon sakini Qadir Mövlanov gəlir. Qadir 15 yaşlı yeniyetmədir. O, gələcəkdə rəssam olmaq istəyir. Mərkəz işçiləri hər zaman ümid edirlər ki, Qadir gələcəkdə istedadı və əməyi nəticəsində rayonumuzun fəxri olacaq.

Mərkəz bu günə qədər kurs üzvlərinin 2 dəfə rəsm əsərləri və əl işlərindən ibarət satış-sərgisini keçirmişdir.

Mərkəz birinci satış-sərgisini 2009-cu ilin dekabr ayının 3-də Beynəlxalq Əlillər Günündə keçirmişdir. Həmin satış-sərgi keçmiş Əlillərə Dəstək Xeyriyyə İctimai Birliyinin inzibati binasında təşkil edilmişdir. Birliyin sədri Yaşar Hümbətov da sərginin keçirilməsində və təşkilində mərkəzə dəstək verən könüllülərdən biri olmuşdur.

Bu il iyun ayının 1-də Beynəlxalq Uşaq Günü münasibəti ilə Qəbələ Mədəniyyət Mərkəzində yerləşən rəsm qalereyasında kurs üzvlərinin rəsm əsərlərindən və əl işlərindən ibarət satış-sərgisi keçirilmişdir. Sərginin təşkilində Qalereyanın direktoru Malik Ağayevin yaxından köməkliyi olmuşdur.

Sərgidə rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin rayonun vəzifəli şəxsləri ilə birlikdə iştirak etməsi həm mərkəzin işçi heyətinin, həm də xüsusi qayğıya ehtiyacı olan uşaqları, onların valideynlərini sevindirmişdir. Hörmətli başçının mərkəzimizə göstərdiyi diqqət və qayğı işçilərimizin hər birini yaxşı işləməyə həvəsləndirib, məsuliyyət hissimizi artırıb.

Mərkəzdə qeydiyyatda olan fiziki cəhətdən qüsurlu Samir Əmirşahlının rəsm əsərləri ilə tanış olduqda insan daha da təəccüblənir. Səbəbi də budur ki, fərdi təhsildən başqa təhsil almayan yeniyetmə əsərlərində rəsm cizgilərindən dəqiqliklə istifadə etməsidir. Samirin mərkəzə tanış olan başqa istedadı da var. Samir qohumlardan, qonşulardan, tanışlardan xahiş edərək istismara yararlı olmayan elektrik-məişət cihazlarını toplayaraq təmir elədikdən sonra geri qaytarır. Bu cür bacarıq Samirin sevimli hobbisidir. Maddi imkansızlıq ucbatından Samirin texniki avadanlıqlar düzəltməyə iş otağı olmadığından o bu işlə geniş şəkildə məşğul ola bilmir. İstərdik ki, ona bu işdə köməklik etmək istəyən xeyirxah insanlar tapılsın.

2012-ci ilin dekabr ayının 3-də Ailə Qadın Uşaq Problemləri üzrə Dövlət Komitəsi Bakı şəhərində satış-sərgi keçirmişdir. Sərgidə rayon mərkəzlərində qeydiyyatda olan qüsurlu uşaqların çəkdiyi rəsmlər nümayiş olunmuşdur. Komitənin təşkil etdiyi satış-sərgi "Yarat Art" layihəsi altında təqdim olunmuşdur. Sərgiyə bölgələrdə yaşayan və rəsm bacarığı olan qüsurlu uşaqlar dəvət olunmuşdur. Satış-sərgidə mərkəzindən rəsm bacarığı olan 3 nəfər qəbələli istedad iştirak etmişdir. Komitə tərəfindən satış-sərgiyə müxtəlif sahələrdə çalışan iş adamları, tanınmış şəxslər, məşhur rəssamlar dəvət edilmişdilər.

Keçirilmiş sərgidə iştirak edən Qəbələ UADM-nin istedadlı nümayəndəsi Qadir Mövlanovun çəkdiyi rəsm əsəri Moskva Dövlət Universiteti Bakı Filialının rektoru Nərgiz Paşayeva tərəfindən bəyənilib alınmışdır.

Sərgidə «Gilan Holdinq» MMC-nin səlahiyyətli nümayəndəsi tərəfindən Mahmud İbrahimov və Səkinə İbrahimlinin rəsm əsərləri alınmışdır. Yığılmış məbləğ mərkəzdə kecrilən yeni il şənliyində uşaqların özlərinə verilmişdir.

Tüntül kəndində yaşayan Qorxmaz Mustafayevin valideyni mərkəzimizə müraciət edərək bildrmişdir ki, oğlunun rəsm çəkmək bacarığı var. O, övladının gələcəkdə peşəkarcasına rəsmlə məşğul olması üçün köməklik edilməsini xahiş etmişdir. Mərkəzin direktoru Rəna Mahmudova bu məlumatla tanış olduqdan sonra rayonda fəaliyyət göstərən İncəsənət məktəbinin rəssamlıq şöbəsinin rəhbərliyi ilə əlaqə yaratmışdır. Halhazırda Qorxmaz rəssamlıq şöbəsinə gələrək, rəsm çəkmək üçün savad alır.

Əziz valideyinlər, əgər sizin övladınızın fitri istedadı varsa çəkinməyin. Övladınızda olan bacarığa laqeyid yanaşmayın. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyasına dövlətimiz tərəfindən kifayət qədər diqqət yetirilir. Çalışmaq lazımdır ki, sizin övladınızın diqqətdən kənarda, habelə sərbəst ünsiyyətdən geri qalmasın. Ola bilsin ki, mərkəzimiz hələ sizin ailə ilə tanış deyil. Bu barədə mərkəzimizə müraciət edə bilərsiniz.

**Günay KƏRİMOVA,**
**Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin metodisti.**

# İslamın tarixindən

Yer üzündə tikilmiş ilk bina Məkkədəki Kəbə evidir. Rəvayətə görə, Cənnətdən yer üzünə qovulmuş Adəm peyğəmbər ibadət və tövbə etmək üçün Kəbəni tikmiş və Cənnətdən endirilmiş «Qara daş»ı (Həcərül-əsvəd»i) onun divarına bərkitmişdir. Həzrət Nuhun tufanı zamanı Kəbə uçmuş, sonralar İbrahim peyğəmbər oğlu İsmaillə birlikdə buranı təmir etmişdir.

* * *

Yür üzündə qan tökmüş ilk insan Həzrət Adəm peyğəmbərin oğlu Qabil olmuşdur. O, aralarındakı rəqabətləri həll etmək üçün qardaşı Habillə Allaha qurban gətirmək qərarına gəlmişdir. Habilin niyyəti daha səmimi olduğundan, qurbanlığı qəbul olunmuş, amma Qabil öz əməlakının ən pis hissəsini gətirdiyi üçün qurbanı qəbula yetməmişdir. Qəzəblənmiş Qabil Habili daşla vurub öldürmüşdür. Beləliklə, yer üzündə tökülən ilk qan qardaş qanı olmuşdur.

* * *

İslamı qəbul etmiş ilk insan qadın olmuşdur. Bu, Həzrət Məhəmməd peyğəmbərin (s) vəfalı həyat yoldaşı Xədiceyi-Kubradır. Rəsulullah (s) ilk vəhyi aldıqdan dərhal solnra bu barədə Xədicəyə (ə) danışmış və o, iman gətirib müsəlman olmuşdur. Xədicədən sonra Peyğəmbərin (s) əmisi oğlu və gələcək kürəkəni 11 yaşlı Əli ibn Əbu Talib (ə) İslamı qəbul etmişdir.

* * *

İslam tarixində ilk azan vermiş şəxs Bilal olmuşdur. Allah Rəsulunun (s) məsləhəti ilə Bilal yaxınlıqdakı evlərin birinin damına çıxaraq uca səslə azan verərmiş. Peyğəmbərin ömrünün sonunadək azanı Bilal vermişdir.

* * *

Məkkədən Mədinəyə hicrət etmiş ilk şəxs Musəb ibn Ümeyrdir. Rəsulullah (s) onu bu şəhərə göndərib ki, orada İslam qanunlarını camaata öyrətsin.

* * *

Qurani-Kərimi Peyğəmbərin (s) vəfatından sonra toplayıb vahid kitab şəklinə salmış ilk şəxs Əli ibn Əbu Talibdir (ə). Peyğəmbərin sağlığında dəri üzərinə yazılmış nüsxələri 3 gün ərzində o, kitab şəklinə salmışdır.

**Aytac RƏHİMLİ,**
**Vəndam qəsəbə 1 nömrəli tam orta məktəbin XI sinif şagirdi.**